# SƏSİN AVAZINA SÖZÜN AĞISI

## BÜTÜN ŞƏHİDLƏRİN BACİSİYAM MƏN

Gəlininin toy xınası solmayan,
Təzə bəyi hələ ata olmayan,
Hətta belə nişanəsi qalmayan
Bütün şəhidlərin bacısıyam mən.

Beş-alti bacısı olanların da
Körpəsi qundaqda qalanların da
Canüstə xəyala dalanların da
Bütün şəhidlərin bacısıyam mən.

Necə başsız gələn bədənlərin də,
Muradı gözündə gedənlərin də,
Anası intihar edənlərin də -
Bütün şəhidlərin bacisiyam mən

Allah, nələr cəkdi bəlalı başım
Yanağımda cığır acdı göz yaşım.
Təkcə Qədirxan deyil ki qardaşım
Bütün şəhidlərin bacısıyam mən.

Adına şirin cay icmədiyimiz,
Hələ zövcəsini secmədiyimiz,
Bəylik libasını bicmədiyimiz
Bütün şəhidlərin bacısıyam mən.




Ömrünün nizamı pozulanların,
Adı qanı ilə yazilanların,
Məzari ürəkdə qazılanların,
Möhnəti, ağrisi, acısıyam mən
Bütün şəhidlərin bacısıyam mən.

Nakamları el-obası oxşayan
Laylasın cal, ağısın de, oxşayan
İnci şəhid Qədirxantək oxşayan
Bütün şəhidlərin bacısıyam mən.

## HAQQINIZI HALAL EDİN, QAZİLƏR

Hər biriniz Murov boyda dağsınız
El yanında daim üzü ağsınız.
Sizlər Şuşasınız, Qarabağsınız,
Haqqınızı halal edin, qazilər

Bu dünyanın astarı nə, üzü nə
Yol getdiniz haqqa dogru, düzünə,
Canım qurban şəhid, qazi sözünə,
Haqqınızı halal edin, qazilər.

Qarışdı torpağa hər damla qanın,
Möhürbəndi olduz şeirin, dastanın.
Qeyrət simvolusuz Azərbaycanın
Haqqınızı halal edin, qazilər.

Şücayətlə gözün qurban verənlər,
Qolsuz, qıçsız geri dönən ərənlər.
Allah, kordu ədaləti görənlər
Haqqınızı halal edin, qazilər.

Ay Şirvanlı, od ələndi başıma
Catmaz gücün bu qəm yükün daşıma
Rəhm eyləyin bu qanlı göz yaşıma
Haqqınızı halal edin, qazilər.



*İnci ŞİRVANLI*

Kredo.- 16 dekabr.- 2021- ci il.- S. 6.